2019-cu il dekabrın 23-nə keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 09 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 26 dekabr 2019-cu il

2019-cu il dekabrın 25-də 74 saylı Lənkəran kənd seçki dairəsinin Osaküçə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Niftullayev Talışxan İsmayıl oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsinin 32 saylı seçki məntəqəsində qanun pozuntularının baş verdiyini bildirmiş və müvafiq tədbirin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci hissələrinə və 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 74 saylı Lənkəran kənd seçki dairəsinin Osaküçə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Niftullayev Talışxan İsmayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 09 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova